# 380 Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. 1993-cü il 2 mart tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Dövlət himni haqqında Əsasnamənin (Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1993-cü il, № 11, maddə 328) 2-ci maddəsinə aşağıdakı əlavələr və dəyişikliklər edilsin:

1. Maddəyə aşağıdakı məzmunda "a" və "b" bəndləri əlavə edilsin:

"a) Azərbaycan Respublikası Milli Məclisinin sessiyalarının başlanması və qurtarması zamanı;

b) Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin iclaslarına gəldiyi zaman;".

2. "a", "b", "v", "q" və "ğ" bəndləri müvafiq olaraq "v", "q", "ğ", "d" və "e" bəndləri kimi sayılsın.

II. 1996-cı il 17 may tarixli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin (Azərbaycan Respublikasının qanunvericilik toplusu, 1997-ci il, № 2, maddə 107; 1999-cu il, № 5, maddə 284) 1-ci maddəsinin üçüncü hissəsinin birinci cümləsindən sonra aşağıdakı məzmunda cümlə əlavə edilsin:

"Milli Məclisin sessiyalarının başlanması və qurtarması zamanı Azərbaycan Respublikasının Dövlət himni ifa olunur."

III. Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 7 mart 2000-ci il
№ 818-IQD